# Cənubi Azərbaycan poeziyası publisistikada (1944-1945-ci illər)

*(Əvvəli ötən sayımızda)*

Cənubi Azərbaycan xalqına böyük Yaradan bir il də olsa, azad dövlət, azad dil, içərisində xain olmayan müstəqil ordu qismət etdi. O bir ilin şöhrəti, şanı, qüruru, təntənəsi uzun illərdir yaşanmaqdadır. Məktubda Cənubi və Şimali Azərbaycanın ayrı düşməsini yanğıyla təsvir edən şairlər bunu ağır dərd adlandırır:

Bir ölüm, bir də fəraq olmaya kaş,
Qalmaya qardaşa həsrət qardaş.

Qızıl Ordunun tarixində çox sayda "qara ləkə" var. Beş il Cənubda qaldı, kömək etdisə də, sonra öz mənafeyini düşünüb işini yarımçıq qoydu və qaçdı. Bir "qara ləkə" də onda qazandı. Amma cənublu şairlər, azəri övladları çox sədaqətlidir, dost dediyinə minnət duyar, kəsilən duz-çörəyi yüksək qiymətləndirər. Onların məhəbbəti gözlərdə deyil, könüllərdə yaşar. Ordu cismən Cənubdan ayrılır. Ancaq tərənnüm uzun illər davam edir. Vaqifdən sitat gətirən şairlər çox kədərlənib:

"Ayrı düşsəm də o gözəldən mən,
Qəlbinə yol görünür qəlbimdən".

Dostlarının ölkələrini tərk etməsi onlar üçün çox qüssəli andır. Vətənin taleyi təhlükədə ola bilər. Fars zülmünün ayaqlar altında qaldığı bir zamanda ordunun çıxması xalqda təşviş yaradır.

Hilal Nasirinin harayı indi başa düşülür. İnsanları köməyə çağırır. Onları fars şovinistlərindən qoruyan bu əsgərlərə məhəbbəti o qədər böyükdür ki, onları eşq kəməndinə salan "yari-mehriban" adlandırır, hətta Təbrizi gülüstanə çevirən o kəslərin gedərkən gülləri də, Gülüstanı da apardıqlarını bəyan edir.

Hilal, sanma ki, yarın çevirdi üz səndən
O da sənin kimi, vallahi bağrı qan gediri.

Cənublu bacı-qardaşlarımız düşünmüşdür ki, Qızıl Ordu onları İkinci Dünya müharibəsinin dəhşətlərindən xilas etmiş, azadlıq və mədəniyyət yolunu onlara göstərmişdir. Ancaq belə deyil. Fars şovinistləri ilə, ingilislərlə onlar özü-fədailər, bir də milli hökumətin baş vəziri S.C. Pişəvəri ardıcıl olaraq həm ideoloji, həm də səngərdə qəhrəmancasına vuruşmuşlar. Qızıl əsgər də bir istinadgah idi. S.C. Pişəvəri "Qızıl əsgər" qəzetində onlara dəstəkləri üçün minnətdarlığını bildirərək yazırdı ki, İran xalqlarının qəddar Pəhləvi rejimindən, işgəncələrdən xilas olmasında Sovet əsgərlərinin böyük əməyi var. Cənubda Qızıl Ordunun bir müsbət avantajı da o *idi ki, xalqın* daxili işinə qarışmırdı. O vaxt Vətəni xilas edən fədailərin vətənə bəslədikləri məhəbbət və sədaqət, ali əxlaq nümunələri və cəngi qəhrəmanlıqları idi. Fədailərin bu nümunəvi hərəkətləri uzun illərdir biz azərbaycanlıların ibrət dərsinə çevrilib. Qızıl Ordudan əvvəl onların ideya, fikri, mənəvi rəhbərləri olub. Səttar xan kimi, Ş.M. Xiyabani kimi. Azərbaycan xalqının böyük fədailəri, milli qoşunun döyüşçüləri öz milləti yolunda həmişə canından keçməyə hazır olub. Buna mədəniyyət və yaxud mədəniyyət ordusu demək olarsa, belədir. O vaxt Təbrizdə qazılan 8 su quyusundan xalq da, Qızıl Ordu əsgərləri də halallıqla istifadə etmişdir. Poeziya nümunələrindən aydın olur ki, teatr, kino və klublar xalqın üzünə açılmışdı. Amma Qızıl Ordu həkimlərinin fəaliyyəti danılmazdır. İnsanları müalicə edərək xəstəliklərin pəncəsindən xilas edən, onların qayğısına qalan həkimlər hər cür təşəkkürə, tərənnümə layiqdir. Eyni zamanda bir müsbət hal da o idi ki, Azərilərin adət-ənənələrinə, mentalitetinə zərər verəcək hallar baş vermirdi. Bəlkə də, bu Şimaldan Cənuba ezam olunmuş milliyyətcə azərbaycanlı olan siyasilərin və mədəniyyət xadimlərinin xüsusi nəzarətinin nəticəsi idi ki, əxlaq və tərbiyə məsələlərində heç bir qüsur nəzərə çarpmırdı. Bu, sözdə deyil, işdə özünü göstərirdi.

Təbrizin lirik şairi Fəxrəddin Məhzun, Urmu şairlərinin əksəriyyəti yurdun bəzəyi "yoldaş"ın ayrılmasını kədərlə qarşılayırdılar. Hər biri öz ürək sözlərini şeirə tökürdü. F.Məhzun "Ədəbiyyat"qəzetinə göndərdiyi şeirində yazırdı:

Fəraqından bütün gözlər dolur yaş,
Bağü-bağça, qan ağlayır dağ-daş.
Bizim yurdumuzun bəzəyi yoldaş
Bu gün güle-gülə ayrılır bizdən.

Həmin dövrdə Təbrizdə mədəniyyət məsələlərinə məxsusi diqqət yetirilirdi. Təbrizli aşıq şair Aşiq Hüseyn yenicə yaranan milli hökumət tərəfindən Xalq artisti adına layiq görülmüşdü. Hər yerdə hörmətlə qarşılaşan A. Hüseyn Sovet nümayəndə heyəti ilə də xoş münasibət yaratmışdı. O da öz məhəbbətini onlara yetirməklə bərabər, getmələrinə də məyus olurdu.

Ayrılıb uzağa gəl düşmə məndən,
Hicran kəlməsini soruşma məndən.
Könülsüz əl verib görüşmə məndən,
Mən aşiqəm sən canana, xoş gəldin!

Onların getməsi aşıq-şairi o qədər kədərləndirir ki, bu vəziyyətin, məlalın onu Şeyx Sənana döndərəcəyindən qorxur və Şimala Azəri övladlarının atəşin salamlarını göndərir.

Əli Tudə isə tam şəkildə inanır ki, Qızıl Ordu hissələri kəsdikləri duz- çörəyə sədaqətli olar, tapdamaz, unutmaz və dostlarını yarı yolda buraxıb atmaz:

Qəlbim tutulub da gözüm dolsa da,
Lakin toplayıram qüvvəmi yenə,
Çünki ümid verir qardaşım mənə.
Bilirəm atmamış, o atmaz məni,
Unutmaz heç zaman, unutmaz məni.

Bəli, "ortaq qardaşımız!!!...." bizi heç vaxt "unutmadı": nə Qarabağ hadisələrində, nə də qanlı Yanvarda..... Hər zamanın bir hökmü var, deyirlər. Yaman yaxşı, düşmən də dost ola bilir. Atalar onu da deyir ki, "Qarı düşmən dost olmaz", "İlanın ağına da lənət, qarasına da".... Amma tarix dostluqları da, düşmənlikləri də ələyir. Zaman-zaman hər kəsin yaxşı və pis əməli üzə çıxır, düyün açılır, məqsəd aydınlaşır. Məlum olur ki. Cənubi Azərbaycan xalqını "azadlığa çıxarmağa" gedən sevimi Qızıl Ordu əslində özünün cənub sərhədlərini qorumağa gedib. Cənubun neft ehtiyatlarına belə "tamah salıb". Əvvəl İranla əlbir olan bu "dostlar" ayı və şir məsəli Azərbaycanı parçaladılar. Yenə Azərbaycan üzərindən öz işlərini yürüdürmüşlər. Əli Tudə "O ağır günümdə köməyə gəldi" deyəndə olacaqlardan xəbərsiz idi. Eynən Azəroğlu kimi. 1921-ci ildə anadan olan, taleyinə də "21 Azər" hərəkatı yazılan, 25 yaşında olarkən "Təbrizin görkəmli şairi" ("Ədəbiyyat" qəzeti, 1946-cı il, №13 (447) adlandırılan Balaş Azəroğlu şeirlərində həmin dövr hadisələrini, xalqının sevinc və kədərini qələmə alır, yeni-yeni yaradıcılıq uğurları qazanır, gözəl bədii nümunələr yaradırdı. Azəroğlu həm cismən, həm də qələmi ilə vətəninin azadlığı uğrunda mübarizədə özünü fədai kimi tanıdan şairlərdəndir. Faşizmin üzərində qələbəyə sevinsə də, ikiyə parçalanmış Azərbacan yarası onu incidir. Qəzetin həmin sayında 3 şeiri nəşr olunub: "9 May-Qələbə günü", "Şeir", "Azərbaycan". Bir gözüylə qələbə sevinci yaşayan şair o biri gözüylə vətən dərdinə ağlayır:

Bəlkə hər ürəkdə min bir Araz var,
Sönmür Arazdakı coşğun dalğalar.
İstəsən bunları qurudasan, bil,
Əvvəlcə ellərin göz yaşların sil.
Sil bu ürəklərdə yer salan qəmi,
Qalmasın nə Araz, nə hicran qəmi!

Ona görə ki, Azərbaycan onun üçün könül quşunun qonduğu "budaq", anasının mehriban qucağı, arxalandığı yeganə dayaq, sirr ocağı, ümid yeri, azadlıq şəlaləsinin qaynadığı bir bulaqdır. Saysız qəsb, təcavüz, müharibə, qan, qada görən Azərbaycan o şah vüqarını heç zaman düşmən qabağında əyməyib. Vətən onun üçün ilham pərisi, pərvanəsi olduğu odlar ocağı-odlar yurdudur. Heç bir dünya ölkəsi Cənubun fədai oğulları kimi qəhrəman görməyib. Hər dəfə "alçaq yağı"ların tələsinə tuş gəliblər. Odur ki, aslanlar oylağı, Babək yurdu, Oğuz igidlərinin yatdığı torpaqlar uzun illərdir düşmən tapdağındadır. B.Azəroğlu yazır:

Yəqin bu halımı duymusan sən də,
Mən heç içməyirdim dostlar içəndə.
Amandır sərhəddi qatar keçəndə,
Doldur piyaləmi Arazdan mənim.

XX əsrin 40-50-ci illərinin mətbuatını izləyəndə Cənubi Azərbaycan şair və yazıçılarının böyük ürəyi, təxəyyül diapazonu insanı heyrətə salır. Xüsusən poeziyanın mövzu dairəsi inanılmaz dərəcədə zəngindir. Həmin illərin ağır hadisələrinin içərisində olan bu yazarlar təkcə fədailərin başına gələnləri, qəhrəmanlıqları deyil, ikiyə parçalanmış Vətən dərdini, dünya xalqlarının azadlıq uğrunda müharibəsini, faşızm üzərində qələbənin sevincini və s. dərin hissləri ilə dərk edir və qələmə alırdılar. Kədər hissi və tərənnüm onların yaradıcılığında qoşa addımlayırdı. Əgər azadlığı dünyada axan şəlaləyə bənzətsək, Cənubi Azərbaycan onun qaynadığı bulaq idi. Azadlıq və istiqlaliyyət hissi onların damarlarında axan qana qarışıb. Torpaqları da qanla yoğrulub. Fars şovinizminin Azəri torpaqlarına basdığı hər ayaq izi qan ağlayır. Qarabağı, Cənub, Zəngəzur, Dərbənd torpaqları və s. Azəri xalqı gələcəyə ümidlə, sevinclə baxır. Amma bir yanı geriyə dönükdür, yaralıdır. Bir yanı batmış gəmi kimi. B. Azəroğlu yazır:

Mən onsuzda məstəm, dəryadır qəmim,
Bir gün ayrılmamış qəmdən aləmim.
Doldur piyaləmi qərq olmuş gəmim
Çıxa ta dərindən, dayazdan mənim.

"Ədəbiyyat" qəzetinin 1946-cı il, 1 may sayında Təbrizin görkəmli lirik şairi Həbib Sahirir şeirləri nəşr olunub: "Bir toxucu qıza", "Təbrizə", "Şeir və xəyalın qapısı". 43 yaşlı, ali təhsilli, mükəmməl biliyə və mədəniyyətə malik bu şair həm də gənc nəslin tərbiyəsi ilə məşğul olan bir xalq müəllimidir. Özünəməxsus, orijinal bir təbi var. İfadə gözəlliyi, bədii təsvir vasitələrindən yerli-yerində istifadə, obrazlılıq onun poeziyasının əsas xüsusiyyətlərindəndir. "Bir toxucu qıza" şeirində təhkiyə də var, lirik ricət də. Şair rəngi qaçmış, səsi kallamış, günəş görməyən, uşaqlığını toxuculuq karxanasında xalça toxumaqla keçirən kiçik bir qızın həyatını canlandırır. Onun incə, əlləriylə toxuduğu bəzəkli xalçalar varlıların salonlarını bəzəyir. Bu zavallı qızın özünün isə heç nəyi yoxdur.

Nə vaxtadək ac qarına işləyib,
Yorğun əllər sərf edəcək min əmək?
Eşidibsən bu məsəli babadan:
"Çılpaq gəzib özgələri süsləmək".

Qələmini azadlıq, istiqlaliyyət, yaşayış uğrunda mübarizəyə həsr edən Həbib Sahir bu yaşda qızların məktəbə gəlməsini istəyir. Amma imkanlı qızları o yaşda geyinir, bəzənir, məktəbə gedir, "gül kimi açır". Toxucu qızın isə açan gülü vaxtsız solub. Zəngin qızlarının qisməti məxmər, onunsa qisməti bezdir. Şair bundan çox məyus olub. Onun toxucu qıza arzuları var:

Gül, günəşlər açsın solmuş güllərin,
Gül, quş kimi qanat açıb uzaqlaş,
Qızıl günəş öpsün sarı tellərin!

"Təbrizə" şeirində şəhərin gələcəyinə inamından, "Şeir və xəyalın qapısı"nda isə açılan qapıların məcazi anlamlarını poetikləşdirən şair öz xəyal qapısından bəhs edir. Onun xəyal qapısının biri üfüqdə, dağların üstündə görünən ustadı Lələdən bir qapıdır, özü də başqa bir aləm qapısı. Axşam açılan qapını qəm qapısına bənzədən şair, şəfəq qapısına da gedə bilir. Onun xəyal quşu zülmətdən keçmədən xəyalət qapısını da açmaq istəyir. Günün dağda sönməsini pərdələnən qapıya oxşadan şairin sevdiyi qapı isə ulduzlu göydə yaranır və onun gözəl əsərlər yazmasına səbəb olan xəyalın qapısıdır. Maraqlı və orijinal bir təsvirdir. Doğrudan da, şair olmağın ülviliyi, gözəlliyi belə məqamlarda daha çox nəzərə çarpır. Adi insanların düşünə bilməyəcəyi, həsəd aparılacaq nüanslar. H. Sahir və digərləri kimi istedadlı insanların namərd mancanağında zaman-zaman əzab çəkmələrini düşünmək belə qorxuncdur. Amma "gec olar, güc olar" el məsəlinə inanmaq lazımdır.

Cənubi Azərbaycan xalqı təkcə yaradıcı insanları, fədailəri ilə deyil, tarixi abidələri ilə də öyünməlidir. 1940-50-ci illərin qəzet və jurnal səhifələrini vərəqlədikcə, qədim Azərbaycan şəhəri Marağanın tarixi binaları ilə məşhur, üzüm bağları arasında gizlənmiş bir şəhər olduğunu öyrənirsən. 1148-ci ildə tikilmiş "Qırmızı gümbəz", 1197-ci ildə tikilmiş "Göy gümbəz", Səlcuqilər dövrünün yadigarı olan, memarlıq sənətinin gözəl nümunəs. Amma belə gözəlliyi düşmən gözü götürməmiş və qarət etmişdir. Dünyaca məşhur, Şərq ölkələri arasında bir elm ocağı kimi tanınan "Marağa" rəsədxanasını quyuya oxşar qaranlıq bir mağaraya çevirən də düşmən əlidir. Təbrizdəki "Rəşidiyyə" elm şəhərciyi, "Məqbərətüşşüəra"nın taleyi eyni şəkildə sonlanıb. Qulam Məmmədəlinin deyimində oradakı karvansaraların əksəriyyəti də elm aləminin diqqətini çəkməsin deyə eyni tale yaşayıb. 1946-cı ilin son aylarının dəhişətlərinə qədər Cənub xalqı Şimalın dəstəyi ilə az müddətdə olsa da gözəl günlər yaşadı. Məsələn, yazıçı Vera İnberi İran yazıçılarının I qurultayına (1946, avqust) Sovet yazıçıları gətirmişdi. Vera xanım yeni demokratik məfkurələri tərənnüm edən, yeni formalar axtaran gənc şairlərin çıxışını çox bəyənmişdi. Qurultayda Məmməd Arif Dadaşzadənin Azərbaycan ədəbiyyatı haqqında məruzəsi yüksək şəkildə alqışlanmışdı. Bu da o zaman dostluq və mədəni əlaqələrin mövcudluğunun sübutu idi. Qurultaydan sonra Şiraz şəhərində Sədinin, Hafizin, Hafizin müəllimi Kirmaninin qəbrinin ziyarət edilməsi təqdirəlayiq bir iş idi. Təbrizdə və Şirazda bu xüsusda xüsusi yerlərin təşkil olunması da həm inkişafın, həm də ədəbi-mədəni əlaqələrin göstəricisi idi. Mir Mehdi Çavuşi yazırdı:

Gəlinidir qoca Şərqin, gözəlidir dünyanın,
Yer üzündə cənnət kimi gülzarı var yurdumun.



*Sakibə*
***ƏLƏSGƏROVA,***
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Əməkdar müəllim.*